# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclası keçirilib



3

№ 051 (7461)

SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

7 iyul 2026-cı il.
Qiymәti 1 manat

# Bizim PREZİDENT və ötən 23 il!



2

# Trampın İranla bağlı razılaşmasının "pərdəarxası"



5

## "Media və Yayım Şurası media idarəçiliyində yeni institusional mərhələnin başlanğıcıdır"



5

## 12 ay sonra uşaqlar xilas olur




8

## "Rəsmi işləməyən insanlar gələcəkdə pensiya ilə bağlı problemlə qarşılaşırlar"



5

## Gənclər niyə xaricə üz tutur?



4

## Venesuela zəlzələsi elm mərkəzlərini hərəkətə keçirir - TƏHLÜKƏ



7

# Bizim PREZİDENT və ötən 23 il!

***Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi (MEDİA) tərəfindən 2026-cı ilin birinci yarısında Prezident İlham Əliyevin fəaliyyətinə ölkə vətəndaşlarının münasibətini öyrənmək, bu sahədə dinamika və tendensiyaları təhlil etmək məqsədilə keçirilən ictimai rəy sorğusu belə nəticələndi: Prezident İlham Əliyevə respondentlərin etimad səviyyəsi ümumilikdə 87.7 faiz təşkil edir. Bu göstərici ölkədə hər 10 nəfərdən təxminən 9-nun Prezident İlham Əliyevə etimad etdiyini təsdiq edir. Rəy sorğusunun nəticələrinə əsasən, respondentlərin 93.6 faizi Prezidentin fəaliyyətini müsbət qiymətləndirir. Nəticə belə olacaqdı, çünki söhbət bizim Prezidentdən gedir. Ötən 23 ildə bizimlə birlikdə o Azərbaycandan bu Azərbaycana gələn, illərin hər birini dəsti-xətti ilə salnaməyə çevirən Prezidentimizdən. Rəy sorğusunun nəticələri onsuz da məlum idi. Lakin bildiyimiz nəticə yenidən təsdiqləndən sonra ötən 23 ilin bəzi anlarını xatırlamağı da biz yenidən özümüzə borc bildik.***

Xalqları dünyaya tanıdan təkcə onların zəngin təbii sərvətləri və maddi mədəniyyət inciləri deyil, həm də dünya siyasətində mühüm rol oynayan fenomen şəxsiyyətləridir. Məhz belə fenomen şəxsiyyətlərin müəyyənləşdirdiyi yol hər bir millətin strateji inkişaf konsepsiyasına çevrilməklə onun dünya arenasında özünə layiqli yer tutmasını təmin edir. Belə nadir şəxsiyyətlərdən biri müstəqil Azərbaycan dövlətinin banisi Ulu Öndər Heydər Əliyev güclü dövlət yaratmaqla yanaşı, özündən sonra çoxşaxəli islahatların varisliyini uğurla təmin edə biləcək peşəkar lider də yetişdirib. "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm", - deyən Heydər Əliyevin xalqımıza özünün layiqli davamçısı kimi təqdim etdiyi cənab İlham Əliyevin ötən 5 seçim, ümumilikdə isə 23 illik prezidentlik fəaliyyətinin qısa təhlili bu fikrin qəti qənaət olduğunu sübut edir.

23 ilin başlanğıcı 2003-cü il idi. Xalqımızın taleyində mühüm əhəmiyyət kəsb edən tarix: 15 oktyabr 2003-cü il. Ümummilli Liderin siyasi kursunun yeganə düzgün yol olduğunu görən xalq həmin tarixdə keçirilən seçkilərdə onun layiqli varisi İlham Əliyevi dəstəkləyərək 76,8 faiz səslə özünə yeni Prezident seçdi. Ötən 23 ilin hər anı xalqa ilk müraciətində "Mən hər bir azərbaycanlının prezidenti olacağam!" - deyən cənab Prezidentin qətiyyətlə söylədiyi bu fikrin təsdiqidir.

## Ötən 23 ildə gördük...

Cənab İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan bu gün dünyanın siyasi aləmində özünəməxsus yeri ilə seçilir. Bütün dünya dövlətləri onunla hesablaşır, ona hörmət və ehtiramla yanaşır. Bu, dövlətə məhəbbətdən, xalqa sevgidən, vətəndaşa qayğıdan qaynaqlanıb ölkə hüdudlarını aşan hissdən irəli gəlir. Ötən 23 ildə bunun hər an şahidi olduq. Azərbaycanın gündən-günə inkişafı, tərəqqisi ilə şahid olduq. Sıravi vətəndaşdan tutmuş müəllimə, həkimə, mühəndisə, elm xadimlərinə, uşaqdan böyüyə hər kəsə qayğıda, ehtiramda gördük. Ölkə rəhbərinin qaçqınına, köçkününə, şəhidinə, qazisinə, ümumilikdə hər bir vətəndaşına qayğısında gördük.

Ötən 23 ildə ölkənin iqtisadi gücünün ordu quruculuğuna yönəldilməsində, torpaqlarımızın bir gün işğaldan azad olunması üçün hərtərəfli tədbirlərin həyata keçirilməsində gördük. Nə üçün əsasən, ordu quruculuğu məsələsinin üzərinə gəldim? Çünki ölkəmizdə insanlar illərlə torpaq həsrəti ilə yaşayırdı. Onları ən çox düşündürən yurd yerlərinə qovuşmaq idi. Nə qədər inkişaf etmiş bir ölkədə yaşasalar da, hərtərəfli qayğı ilə əhatə olunsalar da, qaçqınlıq və köçkünlük acısı, yurd həsrəti vardı ürəklərdə. Onlar öz torpaqlarını istəyirdi. Qarabağ Azərbaycanın yarası idi. Bu yara sağalardısa, Azərbaycan tam ola bilərdi.



## Yeri gələndə tarixçi, coğrafiyaçı, siyasətçi, yeri gələndə sıravi azərbaycanlı LİDER

Zaman göstərdi ki, məhz Heydər Əliyev və Zərifə xanım Əliyeva kimi dahi insanların, gözəl ata-ananın, ləyaqətli vətəndaşların, ictimai xadimlərin, vətənpərvər insanların ailəsində İlham Əliyev kimi övlad böyüyə bilərdi. Bu övlad ailənin bütün üstün cəhətlərindən zaman-zaman aldığı dəyərlərlə yumruğu boyda ürəyinə Azərbaycan böyüklükdə Vətən sevgisini elə sığdıracaqdı ki, bu sevgi bir gün xalqın, millətin xilasına çevriləcəkdi. 30 il işğal olunan torpaqlara görə başını dik tuta bilməyən xalqın başını zirvələrə qaldıracaqdı. Xalqa qürurunu, namusunu, iffətini qaytaracaqdı. Azərbaycanın işğal olunan torpaqlarının azad olunması ilə tarixin 270 illik zaman kəsiyinin axarını dəyişəcəkdi.

Deyirlər, yaxşı ataların yaxşı oğulları olur. Ulu Öndər Heydər Əliyevin Azərbaycana məhəbbətinin, sevgisinin, torpaqlarımızın işğalına ürək ağrısının, onların bir gün geri qaytarılması üçün mübarizələrinin davamını cənab İlham Əliyevdə gördük. Gördük ki, O, tək ailəsinə məxsus övlad yox, ümumilikdə Azərbaycan xalqının övladı oldu. Gördük ki, dövlətimizin başçısı kimi fəaliyyət dövrünün hər anı ölkəmizin inkişafına, dünyada tanınmasına, bir də ata nəsihətlərinin həyata keçirilməsinə sərf edilib. Gördük ki, Qarabağ məsələsi bir an da unudulmayıb. Liderimizin bütün bayramlarda xalqa müraciətlərdə Qarabağın bir gün azad olunacağına əminliyini dinlədik. Bu torpaqların düşmən tapdağı altında inləməsini ürək yanğısı ilə yaşadığını hiss etdik. Onların bir gün yenə də bizim olacağına xalqı əmin etdiyini gördük...

Prezidentimiz ən mötəbər tədbirlərdə Qarabağla bağlı dünyaya üz tutdu. Qarabağ həqiqətlərini onlara çatdırdı. Bütün dünyanı haqq səsimizə səs verməyə çağırdı. Bu qədim torpaqların Azərbaycana məxsusluğunu tarixi faktlarla sübut etdi. Bizim Prezidentimiz yeri gələndə tarixçi oldu, yeri gələndə coğrafiyaçı, yeri gələndə siyasətçi, yeri gələndə sıravi azərbaycanlı. Mükəmməl olaraq rus və ingilis dillərdə mötəbər kürsülərdəki səlis nitqləri ilə bir tərəfdən azərbaycanlı olduğu, bizim Lider olduğu üçün, digər tərəfdən isə xalqın istəklərini aydın çatdırdığı üçün qürur duyduq.

Bizim Prezidentimiz Azərbaycanın sülhün tərəfində dayandığını bütün dünyaya bəyan etdi. Dünyanı sülhə çağırdı. Ermənistanın dinc yolla torpaqlarımızı qaytarmasını tələb etdi. Liderimiz ikinci yolu da birinci yolla paralel inkişaf etdirdi. Bu, hərb yolu idi. Dəfələrlə çıxışlarında, beynəlxalq tədbirlərdə açıq şəkildə bildirirdi ki, torpaqlarımız sülh yolu ilə qaytarılmazsa, hərb yolunu seçməli olacağıq. Belə də oldu. İkinci yolun harada və nə vaxt başlanacağını böyük uzaqgörənliklə hazırlayan cənab İlham Əliyev dünyanın qulaqlarının sülh çağırışına kar olduğunu bir daha yəqin edəndən sonra, ikinci yola çıxmağın zamanını bəyan etdi. Bu yol Ermənistanın yeni torpaqlar iddiasına dərhal verilən cavabla başlandı. 27 sentyabr 2020-ci il Qarabağın azadlığına gedən yol oldu. Cəmi 44 gün davam edən İkinci Vətən müharibəsi Azərbaycan xalqının böyük Zəfəri ilə bitdi və tarixin 270 illik axını dəyişib göstərdi ki, analar dünyaya 200-300 ildənbir elə oğullar gətirir ki, o oğullar zamana hökm oxuya bilir...

## 90-ların səhvini 2020-də düzəldən LİDER

Qarabağ 1990-cı ildə Azərbaycanda hakimiyyətdə olan AXC-Müsavat qruplaşmasının tarixin də, bu xalqın da bağışlamayacağı səhvi idi. Vəzifədə qalmaq, kürsülərini qorumaq üçün rus imperiyasının son qalıqlarına satılan, torpaqlarımızı Ermənistana hədiyyə etməklə yerlərini möhkəmlətmək istəyən bir qruplaşmanın böyük səhvi idi. Bu, səhvdən də çox ağıla gəlməyən qəbahət idi. Satqınlıq, Vətənə xəyanət, millətə qarşı günah idi. Sən vəzifə üçün bir xalqın dədə-baba yurdunu, əzəli torpaqlarını necə sata bilərsən? Necə razılaşmaq olardı ki, erməni gecənin birində sənin soydaşının qapısında peyda olsun, onu silahın burnunda evindən çıxarıb qışın şaxtasında, ayazında yurdundan qovsun, insanlar yurdsuz, ev-eşiksiz qalsın, illərlə dişi-dırnağı ilə qurub-yaratdığı evini qoyub, dədə-baba ocağını tərk etsin. Nədir ki, sən vəzifədə qalasan, ağılsız olduğun halda hakimiyyəti zəbt edəsən.

Bəli, Qarabağ 90-cı illərin hakimiyyət vurğunlarının qurbanı olmuşdu. Minlərlə insanın ah-naləsini hələ də çiyinlərində daşıyan qruplaşmanın satqınlığının qurbanı olmuşdu. Bunu xalq sonradan bildi, AXC-Müsavat birliyinə etimadını itirdi. Onlarin hakimiyyətdən uzaqlaşmasını tələb etdi. Çünki gözlərinin qarşısında məcburi köçkünlükdə əzab çəkən minlərlə insan vardı. Azərbaycanın işğal olunan baş tacı Qarabağ vardı. Bir də bu işğala görə başını dik tuta bilmən xalq vardı. Nə vaxt, harada Qarabağdan söz düşürdüsə, başımızı aşağı dikirdik. Utanırdıq torpaqlarımızın işğal altında olmasından. Bütün bunları isə xalqa onlar bəxş etmişdi.

Cənab İlham Əliyev 90-ların səhvinin düzəldilməsi üçün uzun illər mübarizə apardı. 90-cı illərdə iqtisadi tənəzzülə uğrayan ölkənin bu vəziyyətini 1993-cü ildən etibarən aradan qaldıran, Azərbaycanda yeni Azərbaycan yaradan, bu qruplaşmanı xalqın yaxasından qoparıb atan Ümummilli Liderin gələcəyə hesablanmış inkişaf konsepsiyasını 2003-cü ildən uğurla davam etdirən dövlətimizin başçısı böyük zəhmət nəticəsində 2020-ci ildə torpaqlarımızın işğaldan azad edilməsinə nail oldu. 44 günlük Vətən müharibəsində Zəfər qazandıq. 2023-cü ilin 20 sentyabrında Xankəndidə birgünlük anti-terror əməliyyatı ilə ərazi bütövlüyünə nail olub suverenliyimizi bərpa etdik.

Müharibə böyük itkilərlə başa çatdı. Bu itkilərin də səbəbkarları onlardır-AXC-Müsavat. Onların səhvləri düzəldilsə də, torpaqlarımız azad edilsə də, Böyük Qayıdış başlansa da, AXC-Müsavat birləşməsinin üzvlərinin bu xalqa vurduğu maddi və mənəvi zərər heç vaxt unudulmayacaq.

## Azərbaycan gəncliyinə nümunə LİDER

Xalq öz Liderinin ətrafında sıx birləşdi. Müharibədə Prezidentimizin düşmənə göstərdiyi dəmir yumruğun rəmzi mənası var idi. Bu, bütün xalqın gücünü özündə toplayan bir yumruq idi. Düşmənin üzərinə endirilən birgə həmlə idi. Xalqın birlik, həmrəylik nümayiş etdirməsi öz Liderinə inamından, arxalanmasından irəli gəlirdi. Gənclərimizin cəbhəyə axın etməsi, səfərbərlik məntəqələri qarşısında gecəli-gündüzlü Ali Baş Komandanın əmrini gözləməsi ötən 36 ilin əvvəlindəki hakimiyyət nümayəndələri ilə müqayisə belə edilə bilməyəcək bir Liderə sahib olmağımızın nəticələri idi.

Minlərlə gəncin böyük sərkərdənin bir əmri ilə döyüşə yollanması gənc nəslin dövlətinin başçısına etimadının göstəricisi idi. Hansı ki, Ermənistan tərəfdə vəziyyət heç də belə deyildi. Bu, baş nazir Nikol Paşinyanın həyat yoldaşı Anna Akopyan tərəfindən də etiraf olunmuşdu. Onun söylədiyinə görə 2020-ci ildə 44 günlük müharibədə Ermənistan ordusunun təxminən 25%-i - 11 min nəfəri fərarilik edib, döyüşlərdən qaçıb. O, Paşinyanın və özünün könüllü cəbhəyə yollanmaq üçün erməni xalqına müraciətlərinə, çağırışlarına da cəmiyyətdən tutarlı reaksiya gəlmədiyini etiraf edirdi. Başqa sözlə, erməni gəncləri Paşinyanın çağırışlarını cavabsız buraxıb - zorla ordu sıralarına cəlb edilənlər isə çıxış yolunu qaçmaqda gördü.

*Ardı Səh. 3*

Əvvəli Səh. 2

### Xalqını xoşbəxt gələcəyə aparan LİDER

# Bizim PREZİDENT və ötən 23 il!

Bu gün Qarabağda yenidənqurma və bərpa işləri davam edir. Hələ müharibə bitməmiş azad edilən ərazilərdən başlanan işlərin sürətlə aparılası soydaşlarımızın evlərinə daha tez qayıtmasına xidmət edir. Qarabağın və Şərqi Zəngəzurun inkişaf etdirilməsi, hər bir işğaldan azad edilmiş rayonumuzla bağlı Liderimizin fikirləri bu yurdların yaxın gələcəkdə böyük inkişafından xəbər verir.

Zəngəzur dəhlizinin açılması ilə bağlı görülən işlər isə nəinki xalqımızın, region dövlətlərinin də gələcək inkişafına hesablanmış addımdır. Ermənilər üçtərəfli 10 noyabr Bəyannaməsində üzərinə düşən öhdəlikləri icra etməsələr də, bizim Liderimiz bu məsələni dünya səviyyəsində-ABŞ Prezidenti ilə həll etdi. Bununla da Azərbaycanın gücünü, nə qədər zəngin bir coğrafiyaya malik olmasını, bu coğrafiyanın dünyanın bir tərəfindən o biri tərəfinə yol açmasını bir daha dünyaya göstərdi. Artıq dünyanın böyük ölkələri də bizi dinləyir, çünki haqqın tərəfimizdə olduğunu anlayır. Beləliklə, qərbi azərbaycanlıların öz ata-baba torpaqlarına qayıtması, Zəngəzur dəhlizinin açılması, Naxçıvan blokadasının yarılması kimi gündəmdə olan məsələlərimiz yaxın gələcəkdə öz müsbət həllini tapacaqdır. Çünki bütün bunların hər biri ayrı-ayrılıqda Prezidentimizin diqqətindədir və görülən işlər, aparılan danışıqlar müsbət yöndədir. Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan bu gün dünyada bir çox transmilli layihələrin təşəbbüskarı və uğurlu icraçısı, etibarlı tərəfdaş kimi tanınır. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, Azərbaycan qazını Avropaya çatdıran Cənub Qaz Dəhlizi, TAP layihəsi, Avropanı Asiya ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu, Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizləri ölkəmizi energetika və nəqliyyat mərkəzinə çevirib.

Azərbaycan bu gün dünyanın məhdud saylı kosmik ölkələri sırasında yer alır. ”Azerspace-1”, ”Azersky” və ”Azerspace-2” peykləri orbitdə uğurla fəaliyyət göstərir. Prezident İlham Əliyev dövlət strukturlarının fəaliyyətinin təkmilləşdirilməsi və şəffaflığın artırılması, vətəndaşlara yüksək səviyyəli xidmətlərin göstərilməsi istiqamətində bir çox layihələrin, inqilabi islahatların müəllifidir.

***

Azərbaycan xalqı inandığı, etibar etdiyi, arxalandığı və sevdiyi Lideri ilə xoşbəxt gələcəyə doğru bir yolçuluğa çıxıb. Bu yolçuluqda hər an Ümummilli Liderimiz Heydər Əliyevin və xalqımıza müzəffər sərkərdə bəxş edən Zərifə xanım Əliyevanın parlaq ruhları bizimlədir. Çünki ağsaqqal, ağbircək olan yerdə Allah var. Ata vəsiyyətini reallaşdıran və bunu Şuşanın alındığı gün Bakıda Şəhidlər Xiyabanında böyük qürurla söyləyən bizim Prezident xalqımızın çoxəsrlik ailə dəyərlərini qoruması ilə də nümunə oldu. Nə xoşdur ki, Qarabağımızı-torpaqlarımızı, şərəf və namusumuzu xilas edən LİDERİMİZ var. Nə xoşdur ki, övladlarımız hər addımı Liderləri və dostları cənab İlham Əliyevdən öyrənirlər. Öyrənirlər ki, onlar da əsl övlad, əsl vətəndaş ola bilsinlər.

***Mətanət Məmmədova***

# Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclası keçirilib

***İyulun 6-da Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin növbəti iclası keçirilib. İclasda YAP Sədərək rayon təşkilatının sədri Arif Mikayıl oğlu Qasımovun, Şahbuz rayon təşkilatının sədri Rizvan Təmo oğlu Məmmədovun, Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəli oğlu Vəliyevin, Xaçmaz rayon təşkilatının sədri Məhəmməd Müslüm oğlu Balaqadaşovun və Qusar rayon təşkilatının sədri David Nurəddin oğlu İbrahimxəlilovun təqaüd yaşına çatmaları ilə əlaqədar tutduqları vəzifədən azad olunmaları məsələsinə baxılıb və müvafiq qərarlar qəbul olunub.***

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov partiyanın təşkilatlanması və inkişafında mühüm xidmətləri olan həmin şəxslərin Heydər Əliyev ideyalarına daim sadiq olduqlarını vurğulayaraq bundan sonra da Ulu Öndərin zəngin dövlətçilik irsinin gənc nəslə aşılanması, Prezident İlham Əliyevin siyasətinin təbliği yolunda bilik, bacarıq və səylərini əsirgəməyəcəklərinə, həmçinin öz təcrübələri ilə rayon təşkilatlarının işinə yaxından dəstək verəcəklərinə əminliyini ifadə edib, onlara xatirə hədiyyələrini təqdim edib.
















Daha sonra İlqar Süleyman oğlu İlyasovun partiyanın Qaradağ, Vüsalə Abazər qızı Əliyevanın Sədərək, Nicat Zaur oğlu Ələkbərovun Şahbuz, Zamir Sadəddin oğlu Güvəndiyevin Şəmkir, Emil Nəcəf oğlu Tağıyevin Xaçmaz və Kamran Miran oğlu Əmirovun Qusar rayon təşkilatına sədr təyin edilməsi məsələsinə baxılıb.

YAP Sədrinin müavini Əli Əhmədov, İdarə Heyətinin üzvləri Hikmət Məmmədov və Azər Badamov çıxış edərək namizədliyi irəli sürülən şəxslərin bu vəzifəyə layiq olduqlarını bildirib və onlara fəaliyyətlərində uğurlar arzulayıblar. Müzakirələrdən sonra müvafiq qərarlar qəbul olunub.

Yeni təyin olunmuş şəxslər göstərilən etimada görə partiyanın Sədri, ölkə başçısı cənab İlham Əliyevə dərin təşəkkürlərini ifadə edərək öz üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirmək üçün çalışacaqlarını bildiriblər. Daha sonra cari məsələlərlə bağlı müzakirələr aparılıb və müvafiq qərarlar qəbul olunub.





# YAP Mərkəzi Aparatında tədbir keçirilib










***İyulun 6-da Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı səfirliyinin təşəbbüsü ilə Çin Kommunist Partiyasının (ÇKP) yaradılmasının 105-ci ildönümü münasibətilə tədbir keçirilib.***

Tədbirdə Çinin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Lu Mey və səfirliyin əməkdaşları, YAP İdarə Heyətinin, Veteranlar Şurasının və Gənclər Birliyinin üzvləri, Mərkəzi Aparatın əməkdaşları və yerli təşkilat sədrləri iştirak ediblər.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycan-Çin münasibətlərinin tarixi ənənələrə, möhkəm dostluğa və qarşılıqlı etimada əsaslandığını vurğulayıb. O, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyasının Baş katibi Si Cinpinin siyasi iradəsi sayəsində ildən-ilə möhkəmlənən dövlətlərarası münasibətlərin hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini bildirib.

Partiya diplomatiyasının qarşıda duran hədəflərin gerçəkləşməsinə mühüm töhfələr verdiyini söyləyən Tahir Budaqov 2024-cü ilin noyabr ayında Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında Əməkdaşlıq memorandumunun imzalanmasının əhəmiyyətini diqqətə çatdıraraq məqsədyönlü birgə fəaliyyətin müştərək maraqların təmininə xidmət etdiyini bildirib.

YAP Sədrinin müavini nümayəndə heyətlərinin mütəmadi səfərlərinin ölkələr və siyasi partiyalar arasında münasibətlərin mövcud vəziyyətinin qiymətləndirilməsi və işbirliyinin əhatə dairəsinin genişləndirilməsi xüsusunda önəmini vurğulayıb.

Tahir Budaqov YAP nümayəndə heyətinin cari ilin 23 iyun - 2 iyul tarixlərində Çinə səfəri çərçivəsində keçirilmiş məhsuldar görüşlərin çoxşaxəli əməkdaşlığın dərinləşdirilməsi baxımından mühüm önəm daşıdığını bildirib. O, səfər zamanı göstərilən yüksək diqqətə görə nümayəndə heyəti adından Çin Kommunist Partiyasının rəhbərliyinə təşəkkürünü bildirib. YAP Sədrinin müavini zəngin və şərəfli inkişaf yolu keçən ÇKP-nin 105-ci ildönümü münasibətilə təbriklərini çatdıraraq Çin Xalq Respublikasının inkişafı naminə həyata keçirilən əzmkar fəaliyyətin bundan sonra da uğurla davam edəcəyinə əminliyini ifadə edib və dost Çin xalqına əmin-amanlıq, rifah və firavanlıq arzulayıb.

Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı fövqəlade və səlahiyyətli səfiri Lu Mey iki ölkənin liderləri tərəfindən həyata keçirilən uğurlu siyasət nəticəsində Azərbaycan-Çin münasibətlərinin bütün sahələrdə yüksələn xətt üzrə inkişafının məmnunluq doğurduğunu bildirib.

Çin Kommunist Partiyasının inkişaf yolu və fəaliyyət prinsiplərindən ətraflı bəhs edən səfir ÇKP-nin Yeni Azərbaycan Partiyası ilə əməkdaşlığa böyük önəm verdiyini vurğulayıb. O, yüksəksəviyyəli siyasi dialoq şəraitində nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin davam etdirilməsinin və ümumi maraq doğuran məsələlər üzrə təmasların daha da gücləndirilməsinin vacibliyini qeyd edib.

Səfir Yeni Azərbaycan Partiyasının nümayəndə heyətinin sonuncu səfərinin də uğurlu olmasının böyük məmnunluq doğurduğunu diqqətə çatdıraraq YAP nümayəndələrinə təşəkkürünü bildirib və müvəffəqiyyətlər arzulayıb.

YAP Veteranlar Şurasının üzvü, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (DİA) rektoru, akademik Urxan Ələkbərov istər Cənubi Qafqaz regionunun aparıcı dövləti olan Azərbaycanın, istərsə də dünyada əsas güc mərkəzlərindən biri kimi çıxış edən Çinin özünəməxsus inkişaf modelinə malik olduğunu nəzərə çatdırıb. O, hər iki ölkənin tərəqqi yolunun, o cümlədən əldə etdiyi sosial-iqtisadi nailiyyətlərin beynəlxalq səviyyədə böyük maraq doğurduğunu bildirib. Rektor cari ilin may ayında YAP nümayəndə heyətinin Çinə səfəri çərçivəsində Dövlət İdarəçilik Akademiyası ilə ÇKP Mərkəzi Komitəsinin Partiya Məktəbi arasında Anlaşma Memorandumunun imzalanmasının dövlət idarəçiliyi, strateji planlaşdırma və kadr hazırlığı sahəsində təcrübə mübadiləsi baxımından önəmini vurğulayaraq qarşıda duran vəzifələrin uğurla həyata keçiriləcəyinə əminliyini bildirib.

YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin deputatı Vüqar İskəndərov Azərbaycan-Çin əlaqələrinin vacib tərkib hissəsi olaraq YAP ilə ÇKP arasında işbirliyinin, həmçinin qanunverici orqanlarda dostluq qruplarının səmərəli fəaliyyətinin əhəmiyyətini qeyd edib. O, YAP nümayəndə heyətinin sonuncu səfərinin olduqca səmərəli keçdiyini bildirərək qarşılıqlı fikir və təcrübə mübadiləsinin hakim partiyalar arasında əməkdaşlığın mövcud vəziyyətinin və inkişaf perspektivlərinin dəyərləndirilməsi baxımından xüsusi önəm daşıdığını diqqətə çatdırıb. Sonda cari ilin 23 iyun - 2 iyul tarixlərində Çində səfərdə olmuş partiya nümayəndələri öz təəssüratlarını bölüşüblər.



Elçin Bayramlı

## Gənclər niyə xaricə üz tutur?

***Son illərdə ölkəmizdən xaricə yaşamaq, işləmək və təhsil almaq üçün gedən gənclərin sayı artıb. Bir sıra gənclər bunu daha yaxşı gələcək üçün çıxış yolu kimi görür. İş imkanları, sosial şərait, təhsil və həyat keyfiyyəti daha yüksək olan ölkələrə getməyi seçirlər. Sosial şəbəkələrdə paylaşılan xarici ölkələrdə yaşayış videoları da gənclərin qərarlarına təsir edən əsas amillərdən biri sayılır.***

Bəs bəzi gənclər niyə gələcəklərini öz ölkələrində deyil, xaricdə qurmağa çalışırlar? Xaricdə həyat həqiqətən göründüyü qədər rahatdırmı? Azərbaycanda gəncləri ölkədə saxlamaq üçün nə etmək olar?

Qeyd olunduğu kimi, son dövrlərdə bir çox gənclər xarici ölkələrdə təhsil və iş üçün daha geniş imkanlar gördüklərinə görə həmin ölkələrə üz tuturlar. Bu, ilk baxışda problem kimi görünsə də, müəyyən mənada normal prosesdir. Dünyanın müxtəlif ölkələri arasında təhsil, iş və karyera ilə bağlı miqrasiya axını mövcuddur. Çünki heç bir ölkədə bütün imkanlar eyni səviyyədə deyil. Bəzi ölkələr texnologiya sahəsində, bəziləri təhsildə, digərləri isə sosial və iqtisadi imkanlarda daha üstün mövqedədir. İnkişaf etmiş ölkələrdən də başqa ölkələrə gənclərin axını müşahidə olunur. Gənclər daha yaxşı karyera və fərqli həyat imkanları üçün xaricə gedirlər.

Azərbaycandan da xaricə üz tutan gənclər öz bacarıq və istedadlarını ölkə daxilində reallaşdırmaq üçün lazımi şərait tapa bilmədiyini deyirlər. Məüyyən mənada bu, doğrudur. Məsələn, bizdə müəyyən sahələrdə istehsalat, texnologiya, elmi imkanlar və ya yüksək gəlir səviyyəsi yetərli olmur. Bəzi sahələr üzrə bizdə müəssisələr yoxdur. Bu səbəbdən gənclər iqtisadi, elmi, sosial və texniki baxımdan daha inkişaf etmiş ölkələrə üz tuturlar.

Xaricdə uğur qazanan gənclər çox olsa da, problemlərlə üzləşənlərin sayı da az deyil. Yəni, xalq arasında deyildiyi kimi, heç yerdə yel əsib, qoz tökülməyib, rahat iş qurmaq və ya bizneslə məşğul olmaq, asan yolla yüksək gəlir əldə etmək heç də asan deyil. Düzdür, bəzi mütəxəssislər yaxşı gəlirli işlər taparaq uğurlu karyera qura bilirlər. Lakin bu, hər kəs üçün mümkün olmur. Xarici ölkələrdə yüksək maaş alan şəxslər eyni zamanda yüksək vergilər ödəyir, yüksək yaşayış xərcləri ilə üzləşirlər. Orada həyat tərzi də fərqlidir. Buna görə də xaricə getməyin hər zaman ideal nəticə verəcəyinə dair 100 faiz təminat yoxdur.

Bununla belə etiraf etməliyik ki, Azərbaycanda bəzi gənclər öz potensialını tam şəkildə reallaşdıra bilmir. Müxtəlif sahələrdə problemlər mövcuddur. Bəzi sənaye sahələrində və yüksək texnologiyalar sahələrində müvafiq təhsil almış gənclər iş tapa bilmirlər, mövcud vakansiyalar azdır. Bu səbəbdən əmək bazarında həmin ixtisaslara tələbat aşağı səviyyədə qalır.

Ölkəmizdə gənclərin təhsil və karyerasına dəstək məqsədilə bəzi tədbirlər həyata keçirilir. Lakin bu işlər yetərli deyil və artırılmasına ehtiyac var.

Azərbaycanda gənclərin öz istedad və bacarıqlarını ölkənin inkişafına yönəltməsi üçün xüsusi dövlət proqramları hazırlanmalıdır. Bacarıqlı və istedadlı gənclər müəyyən edilərək startap layihələrinə cəlb olunmalı, innovativ ideyalarının həyata keçirilməsinə və istehsalata tətbiqinə dəstək verilməlidir. Bunun üçün müxtəlif istiqamətlər üzrə klubların və yaradıcı platformaların yaradılması məqsədəuyğun olardı. Məsələn, ixtiraçılar klubu və digər innovasiya mərkəzləri fəaliyyət göstərə bilər.

Azərbaycanda sənayenin və elm tutumlu sahələrin inkişafı sürətləndirilməli, müasir texnologiyalar və süni intellekt kimi istiqamətlərdə yeni müəssisələr yaradılmalıdır. Bu, gənclərin özlərini ölkə daxilində reallaşdırmasına imkan verər. Eyni zamanda innovativ ideyaların maliyyələşdirilməsi mexanizmləri də formalaşdırılmalıdır. Çünki bəzi gənclərin ideyalarına ölkə daxilində diqqət ayrılmır və onlar həmin layihələri xarici şirkətlərə təqdim edirlər. Nəticədə layihələr xaricdə maliyyələşdirilərək həyata keçirilir və faydasını da başqaları görür. "Beyin axını"nın qarşısını almaq üçün dövlət səviyyəsində ciddi proqramlar hazırlanmalı və həyata keçirilməlidir. İstedadlı və intellektual gənclərin potensialı Azərbaycana yönəldilməli, onların fəaliyyəti ölkənin inkişafına xidmət etməlidir.

# Trampın İranla bağlı razılaşmasının "pərdəarxası"



**DETALLAR**

Nəticə etibarilə, bu müharibəni kim qazandı: Tramp administrasiyası, yoxsa İran? Nəşr bu sualı Vaşinqton siyasətinin incəliklərini yaxşı bilən Meikai Universitetinin professoru Tetsuo Kotaniyə verib. Cavab belə olub ki, ABŞ ən azı İrana yüksək dərəcədə zənginləşdirilmiş uranın səviyyəsini aşağı salmağa və birbaşa öz ərazisində utilizasiya etməyə icazə verəcək. Lakin İranın uran zənginləşdirmək hüququndan imtina edib-etməyəcəyi hələ də həll olunmayıb. Bu, 60 günlük danışıqlarda əsas məqam olacaq. Vacib olan budur: İranın uran zənginləşdirmək hüququ qazanıb-qazanmamasından asılı olmayaraq, heç bir gizli inkişafların aparılmamasını təmin etməlidir. Yoxlamalar buna kömək edə bilər. Yoxlama sistemi də 60 günlük danışıqlar zamanı müzakirə olunacaq.

"Çox güman ki, İslam İnqilabı Keşikçiləri Korpusunun zabitləri ölkənin uran zənginləşdirmək qabiliyyətini təmin etmək istəyəcəklər", ehtimalına cavabında professor bildirib ki, bu, danışıqlar yolu ilə həll olunacaq. İranın üç əsas nüvə obyekti var və hamısını saxlamaq və ya bəzilərini sökmək məsələsi əsas mübahisəli məsələlərdən birinə çevriləcək. Bunun daxili siyasətə hansı təsiri olacaq? Hazırda ABŞ-da İrana qarşı sərt xətt tərəfdarları hökuməti "həddindən artıq güzəştlərə" görə tənqid edirlər. Əgər bu fikir həm sıravi respublikaçılar, həm də MAGA (Amerikanı Yenidən Böyük Et) hərəkatının tərəfdarları arasında yayılarsa, bu, Respublikaçılar Partiyasına fayda verməyəcək. Sazişin mənasının ictimaiyyətə necə izah edilməsi vacibdir. - Təkcə memoranduma əsasən, İran qalib gəlibmiş kimi görünür. İrana qarşı sərt mövqe tutan Konqres üzvlərini narahat edən məqam məhz budur. Sual budur ki, Mojtabanın tezliklə açıqlayacağı bəyanatda nə qədər müsbət mesaj olacaq. Müsbət mesaj olarsa, Donald Trampın əsas tərəfdarlarına "bu, yaxşı bir razılaşma idi" deyə izah etməsi daha asan olacaq. ABŞ Müctəbanın sağ olduğunu təsdiqləyib. Zədələri əvvəlcə ciddi olsa da, son bir ayda və ya daha çox müddətdə son qərarlarda mühüm rol oynayıb. Pərdəarxası ABŞ ilə münasibətləri yaxşılaşdırmaq istəyi ilə bağlı mesajlar Müctəbanın özündən gəlib. Prezident Tramp əslində Müctəbanın mesajına, daha doğrusu, İranın mesajına inanırdı. İsraillə bağlı vəziyyət daha mürəkkəbdir - onlar İslam Respublikasına etibar etməyə öyrəşməyiblər. Donald Tramp Netanyahunu istədiyi qədər inandırmağa çalışa bilər, amma mütləq ona inanmayacaq. Hər şey İranın növbəti 60 gün ərzində ABŞ və İsraili sakitləşdirmək üçün nə edə biləcəyindən asılıdır.

*Vəli Vəliyev*

# Avropa İttifaqı Azərbaycanın əsas ticarət tərəfdaşıdır



***Hümbət Hüseynov***

***Azərbaycan Qəsəbə Bələdiyyələrinin Milli Assosiasiyasının sədri, Avropa Şurasında Yerli və Regional Hakimiyyətlər Konqresində Azərbaycan nümayəndə heyətinin üzvü***

***Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen iyulun 1-də Azərbaycana səfəri Azərbaycan-Avropa İttifaqı münasibətlərinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu göstərən mühüm siyasi hadisədir. Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa Komissiyasının Prezidenti ilə görüşü olub, mətbuata bəyanatlarla çıxış ediblər.***

Görüşdə Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması, dayanıqlı sülhün təmin olunması, ikitərəfli ticarət münasibətlərinin başlanması, həmçinin Azərbaycandan Ermənistana neft və neft məhsullarının ixracı və üçüncü ölkələrdən Ermənistana ixrac olunan məhsulların Azərbaycan ərazisindən tranzit keçidi müsbət dəyərləndirildi. Söhbət zamanı Mərkəzi Asiya ilə Avropa arasında regional bağlantılarda Azərbaycanın vacib rolu qeyd olundu, ölkəmizlə Avropa İttifaqı arasında enerji sahəsində uğurlu əməkdaşlığın həyata keçirildiyi vurğulandı. Eyni zamanda Azərbaycanın Avropanın enerji təhlükəsizliyində roluna toxunularaq, onun etibarlı tərəfdaş olması, ölkəmizdən Avropa İttifaqına qaz ixracının həcminin artması məmnunluqla qeyd edildi.

Son dörd ildə Azərbaycanın Avropa İttifaqına qaz ixracının təxminən 65 faiz artması, artıq Aİ-nin 10 üzv dövlətinin Azərbaycan qazı alması təsdiqləyir ki, Avropa alternativ enerji mənbələri axtararkən ən etibarlı tərəfdaşlardan birini məhz Azərbaycanda tapıb. 2022-ci ildə imzalanmış "Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" bu gün konkret iqtisadi nəticələr verir və Brüssel bunu açıq şəkildə etiraf edir. Lakin münasibətlər artıq yalnız qaz üzərində qurulmur. Dövlət başçımızın açıqladığı rəqəmlər gələcəyin enerji xəritəsinin də Azərbaycanda formalaşdığını göstərir. Ursula Fon der Lyayenin də çıxışında Azərbaycanın təmiz enerji və elektrik bağlantıları üzrə böyük potensiala malik olduğunu vurğulaması bu baxışın Brüsseldə də bölüşüldüyünü göstərir.

Qeyd etdiyim kimi görüşdə diqqətçəkən ən mühüm siyasi mesajlardan biri də sülh prosesi ilə bağlı idi. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan və Ermənistan arasında de-fakto sülh artıq qurulub və Bakı bunun praktik nəticələrini göstərmək üçün konkret addımlar atır. Ermənistana tranzit məhdudiyyətlərinin aradan qaldırılması, yanacaq ixracının başlanması regionda yeni iqtisadi münasibətlər modelinin formalaşdığını göstərir. Dövlətimizin başçısının "Biz göstəririk ki, sülh bizim üçün artıq hiss olunan məfhumdur, onu hiss edə bilirik və sülh şəraitində yaşamağı öyrənirik" fikri əslində Azərbaycanın yeni regional strategiyasının mahiyyətini ifadə edir. Burada diqqətçəkən başqa məqam Avropa Komissiyasının da bu prosesi açıq şəkildə dəstəkləməsi və regional əməkdaşlığın genişləndirilməsi üçün maliyyə və siyasi dəstək verməyə hazır olduğunu bəyan etməsidir. Bütün bunlar onu göstərir ki, Prezident İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli və balanslaşdırılmış xarici siyasət nəticəsində Azərbaycan dünyanın əsas güc mərkəzləri ilə etibarlı tərəfdaşlıq münasibətləri qurub. Bu səfər isə tərəflər arasında əməkdaşlığın daha da genişləndirilməsi, mövcud tərəfdaşlığın möhkəmləndirilməsi və qarşılıqlı maraqlara əsaslanan əlaqələrin yeni mərhələyə yüksəldilməsi məqsədi daşıyırdı.

# "Media və Yayım Şurası media idarəçiliyində yeni institusional mərhələnin başlanğıcıdır"



**"Media və Yayım Şurasının yaradılması Azərbaycanın media idarəçiliyində yeni institusional mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər. Bu addım, ilk növbədə, media və yayım sektorunda vahid koordinasiya mexanizminin formalaşdırılmasına, qərarların daha operativ qəbul edilməsinə və idarəetmənin optimallaşdırılmasına xidmət edir." Bu fikirləri Səs qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev SİA-ya açıqlamasında deyib.**

Baş redaktor bildirib ki, müasir dövrdə informasiya məkanı sürətlə dəyişir, rəqəmsal platformaların inkişafı isə media siyasətinə yeni yanaşmalar tələb edir. Belə şəraitdə vahid mərkəzdən idarəetmə təkcə inzibati üstünlük deyil, həm də strateji zərurətdir. Bu model televiziya, radio, rəqəmsal yayım və digər media seqmentləri arasında koordinasiyanı gücləndirəcək, normativ-hüquqi tənzimlənmənin daha çevik həyata keçirilməsinə imkan verəcək.

"Eyni zamanda, idarəetmənin optimallaşdırılması resurslardan daha səmərəli istifadəyə, təkrarlanan funksiyaların aradan qaldırılmasına və dövlət-media münasibətlərində institusional çevikliyin artırılmasına şərait yaradacaq. Bu, həm media subyektlərinin fəaliyyətinə dəstəyin gücləndirilməsi, həm də informasiya təhlükəsizliyi, peşəkarlıq standartları və milli maraqların qorunması baxımından mühüm əhəmiyyət daşıyır.

Hesab edirəm ki, Media və Yayım Şurasının fəaliyyəti təkcə inzibati dəyişiklik deyil, həm də Azərbaycan mediasının yeni inkişaf mərhələsinə keçidini təmin edəcək mühüm islahatdır. Bu qurumun effektiv fəaliyyəti media mühitində sağlam rəqabətin, peşəkar jurnalistikanın və müasir yayım standartlarının daha da möhkəmlənməsinə, ölkənin informasiya siyasətinin vahid strateji xətt üzrə həyata keçirilməsinə mühüm töhfə verəcək", - deyə B.Quliyev əlavə edib.

# "Rəsmi işləməyən insanlar gələcəkdə pensiya ilə bağlı problemlə qarşılaşırlar"



"Bu çox ciddi problemdir. Çünki rəsmi əmək müqaviləsi olmadan çalışan insanlar yaşa dolduqda pensiya fondunda kifayət qədər kapital toplamamış olurlar. Məhz buna görə də pensiya yaşına çatdıqda ciddi sosial-iqtisadi çətinliklərlə üzləşirlər". Bu fikirləri SİA-ya açıqlamasında AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun aparıcı elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent, sosioloq Ağasəlim Həsənov deyib. Onun sözlərinə görə, rəsmi şəkildə işləməyən şəxslərə pensiya yaşına çatdıqda yalnız minimum pensiyanın təyin olunması onların maddi və sosial vəziyyətinə mənfi təsir göstərir:

"Minimum pensiya təminatı qənaətbəxş olmadıqda bu qrup vətəndaşlar gələcəkdə ciddi çətinliklərlə üzləşəcəklər. Yaş artdıqca insanların sağlamlıq, müalicə, istirahət və digər sahələr üzrə xərcləri də artır. Bu baxımdan, rəsmi işləməyən insanlar gələcəkdə minimum pensiya aldıqları zaman maddi problemlərlə qarşılaşırlar. Bu tendensiya gələcəkdə yaşlı insanlar arasında yoxsulluq səviyyəsinin artmasına səbəb ola bilər. Düşünürəm ki, cəmiyyət və dövlət olaraq bu məsələyə ciddi yanaşmalıyıq. İnsanlar əmək fəaliyyəti ilə məşğul olurlarsa, bunu mütləq rəsmi şəkildə həyata keçirməlidirlər. Bu, onların gələcək həyat təminatı baxımından olduqca vacibdir. Belə olan halda, yaşlandıqda işlədikləri müddətdə topladıqları pensiya kapitalı hesabına daha layiqli pensiya ala bilərlər.

Bu kateqoriyaya aid şəxslərin deyil, ümumilikdə bütün pensiyaçıların sosial təminatının gücləndirilməsinə ehtiyac var. Hazırkı dövrdə qiymət artımları bütün sahələrdə hiss olunur. Buna görə də pensiya məbləğlərinin artırılması vacibdir ki, pensiyaçılar gündəlik tələbatlarını rahat şəkildə ödəyə bilsinlər. Bu məsələ həm dövlət, həm də vətəndaşlar üçün həssasdır. İnanıram ki, dövlət sosial siyasət çərçivəsində bu istiqamətdə ardıcıl addımlar atmağa davam edəcək".

*Lətifə Abdıyeva*

ARAŞDIRMA

# Azərbaycanda əhali ən çox nəyə pul xərcləyir?

***Büdcənin yarıdan çoxu gündəlik tələbat mallarına gedir. İnflyasiya, dəyişən istehlak vərdişləri və həyat səviyyəsi ilə bağlı müzakirələrin davam etdiyi bir dövrdə əhalinin gəlirlərini daha çox hansı istiqamətlərə yönəltdiyi maraq doğurur. Dövlət Statistika Komitəsinin 2026-cı ilin yanvar-may aylarını əhatə edən məlumatları göstərir ki, Azərbaycan istehlakçısı hələ də büdcəsinin böyük hissəsini gündəlik tələbat mallarına xərcləyir.***

Beş ay ərzində ölkənin pərakəndə ticarət şəbəkəsində ümumilikdə 25 milyard 510,7 milyon manatlıq satış həyata keçirilib. Bunun 14 milyard 151,8 milyon manatı ərzaq məhsulları, içkilər və tütün məmulatlarının, 11 milyard 358,9 milyon manatı isə qeyri-ərzaq mallarının payına düşüb. SİA mövzu ilə bağlı araşdırma edib.



## Ən böyük xərc ərzağa gedir

Statistik rəqəmlər göstərir ki, alıcıların pərakəndə ticarət şəbəkəsində xərclədiyi vəsaitin 50,9 faizi ərzaq məhsullarına sərf olunub. Başqa sözlə, hər 100 manatın təxminən 51 manatı insanların qida ehtiyaclarının ödənilməsinə yönəlib. Bu göstərici onu deməyə əsas verir ki, ailə büdcəsində əsas prioritet hələ də gündəlik qidalanma və zəruri istehlak məhsullarıdır. İqtisadçılar hesab edirlər ki, inkişaf etməkdə olan ölkələrdə ərzaq xərclərinin ümumi büdcədə yüksək paya malik olması gəlir səviyyəsi və istehlak strukturu ilə birbaşa əlaqəlidir.



## Geyim və ayaqqabı ikinci yerdədir

Araşdırma göstərir ki, vətəndaşların xərclərində ikinci ən böyük istiqamət toxuculuq məhsulları, geyim və ayaqqabılardır. Bu kateqoriyaya ümumi xərclərin 12,8 faizi yönəlib.

Mövsümi dəyişikliklər, məktəb hazırlığı, işgüzar geyimlərə tələbat və moda sektorunun genişlənməsi bu istiqamətdə xərclərin yüksək olmasına təsir göstərən əsas amillər hesab edilir.

## Yanacaq və məişət texnikasına da ciddi vəsait ayrılır

Məlumatlara əsasən, əhalinin xərclərinin 6,4 faizi avtomobil yanacağına sərf olunub. Bu göstərici şəxsi avtomobillərdən istifadənin geniş yayılması və gündəlik hərəkətliliklə bağlıdır. Elektrik malları və mebellər isə ümumi xərclərin 4,4 faizini təşkil edib. Mütəxəssislər bunu evlərin yenilənməsi, yeni məişət avadanlıqlarına artan maraq və uzunmüddətli istehlak mallarına investisiya kimi qiymətləndirirlər.

## Sağlamlıq xərcləri də büdcədə yer tutur

Əczaçılıq məhsulları və tibbi ləvazimatlara ümumi xərclərin 2,9 faizi yönəldilib. Bu göstərici insanların sağlamlıqla bağlı gündəlik ehtiyaclarının və profilaktik tədbirlərə marağının davam etdiyini göstərir.

Kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarına isə ümumi xərclərin 1,5 faizi sərf olunub. Rəqəmsallaşmanın sürətləndiyi bir dövrdə bu göstərici nisbətən aşağı görünsə də, belə məhsulların uzunmüddətli istifadə xarakteri daşıması bunun əsas səbəblərindən biri hesab edilir.

## Digər qeyri-ərzaq malları mühüm pay tutur

Araşdırma göstərir ki, xərclərin 16,5 faizi müxtəlif qeyri-ərzaq mallarının alınmasına yönəlib. Buraya məişət əşyaları, şəxsi qulluq vasitələri, oyuncaqlar, idman məhsulları və digər gündəlik istifadə malları daxildir.

Bu rəqəm istehlakçıların təkcə zəruri ehtiyaclarını deyil, həyat keyfiyyətini artıran məhsullara da vəsait ayırdığını göstərir.

## Pərakəndə ticarətdə artım davam edir

2025-ci ilin eyni dövrü ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə 3,8 faiz artıb. Ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə artım 1,5 faiz olduğu halda, qeyri-ərzaq mallarında bu göstərici 6,7 faizə çatıb. Bu dinamika onu göstərir ki, istehlakçılar zəruri qida məhsulları ilə yanaşı, geyim, texnika, məişət avadanlıqları və digər qeyri-ərzaq mallarına da əvvəlki illərlə müqayisədə daha çox vəsait xərcləyirlər.

## Bir nəfərin orta aylıq xərci nə qədərdir?

Rəsmi statistikaya görə, 2026-cı ilin yanvar-may aylarında bir nəfər orta hesabla ayda 496,9 manatlıq alış-veriş edib.

**Bu məbləğin:**

275,7 manatı ərzaq məhsulları, içkilər və tütün məmulatlarına;

221,2 manatı isə qeyri-ərzaq mallarına sərf olunub.

Bu göstəricilər ailə büdcəsində



ərzağın hələ də əsas yer tutduğunu, lakin qeyri-ərzaq məhsullarına olan tələbatın da artdığını göstərir.

## Xərcləmə vərdişləri cəmiyyət haqqında nə deyir?

İqtisadçılar hesab edirlər ki, əhalinin xərclədiyi vəsaitin istiqamətləri ölkənin iqtisadi vəziyyəti ilə yanaşı, insanların həyat tərzi və prioritetləri haqqında da mühüm məlumat verir. İnkişaf etmiş ölkələrdə gəlirlərin artması ilə ərzağa ayrılan vəsaitin payı azalır, təhsil, istirahət, texnologiya və xidmət sektoruna xərclər isə artır.

Azərbaycanda isə pərakəndə ticarət göstəriciləri göstərir ki, ailə büdcəsinin böyük hissəsi hələ də əsas tələbat mallarının ödənilməsinə yönəlir. Bununla yanaşı, qeyri-ərzaq mallarına tələbatın artması istehlak bazarında yeni tendensiyaların formalaşdığını göstərir.

## Şəhər və bölgələr arasında fərq varmı?

Mütəxəssislərin fikrincə, iri şəhərlərdə yaşayan ailələr daha çox texnologiya, xidmət və məişət avadanlıqlarına vəsait ayırdığı halda,



rayon və kənd yerlərində ərzaq məhsullarının ümumi xərclərdə payı daha yüksək olur. Böyük şəhərlərdə ticarət mərkəzlərinin, onlayn alış-veriş imkanlarının və müxtəlif brendlərin əlçatan olması qeyri-ərzaq mallarına tələbi artırır. Bölgələrdə isə gündəlik istehlak malları və yanacaq xərcləri ailə büdcəsində daha çox yer tutur.

## Onlayn alış-veriş yeni istehlak modelini formalaşdırır

Son illərdə elektron ticarətin inkişafı da əhalinin xərcləmə davranışına təsir göstərib. Artıq geyim, elektronika, kosmetika və məişət əşyalarının böyük hissəsi internet üzərindən sifariş edilir. Kampaniyalar, endirim günləri və hissə-hissə ödəniş imkanları istehlakçıların alış qərarlarına birbaşa təsir edir. Mütəxəssislər bildirirlər ki, rəqəmsal ödəniş sistemlərinin genişlənməsi yaxın illərdə pərakəndə ticarətin strukturunda daha ciddi dəyişikliklər yarada bilər.

## Ən sürətlə böyüyən seqment qeyri-ərzaq bazarıdır

Statistik göstəricilər göstərir ki, qeyri-ərzaq mallarının satışı bir il ərzində real ifadədə 6,7 faiz artıb. Bu isə ümumi pərakəndə ticarətdə qeydə alınan 3,8 faizlik artımdan xeyli yüksəkdir.

Bu dinamika onu göstərir ki, insanlar yalnız gündəlik ehtiyaclarını qarşılamaqla kifayətlənmir, həm də yaşayış şəraitini yaxşılaşdıran məhsullara, geyimə, texnikaya və məişət avadanlıqlarına daha çox maraq göstərirlər.

## Ailə büdcəsinin planlaşdırılması niyə vacibdir?

Maliyyə mütəxəssisləri hesab edirlər ki, gəlirlərin düzgün bölüşdürülməsi uzunmüddətli maliyyə sabitliyinin əsas şərtlərindən biridir. Büdcənin böyük hissəsinin zəruri xərclərə yönəlməsi təbii olsa da, gəlirin müəyyən hissəsinin yığım, təhsil, sağlamlıq və gözlənilməz vəziyyətlər üçün ayrılması ailələrin maliyyə dayanıqlığını artırır. İstehlak xərclərinin statistikası göstərir ki, insanların alış-veriş vərdişləri təkcə bazarın vəziyyətini deyil, həm də cəmiyyətin sosial-iqtisadi inkişaf səviyyəsini əks etdirən əsas göstəricilərdən biridir.

Statistik göstəricilər Azərbaycan istehlakçısının xərcləmə davranışında maraqlı mənzərə ortaya qoyur. Əhalinin əsas maliyyə yükü yenə də qida məhsullarının üzərində cəmləşsə də, qeyri-ərzaq sektorunda müşahidə olunan 6,7 faizlik artım alıcılıq vərdişlərinin dəyişdiyini göstərir. Geyim, məişət texnikası, avtomobil yanacağı və digər istehlak mallarına ayrılan vəsaitin artması onu deməyə əsas verir ki, vətəndaşlar yalnız zəruri ehtiyaclarını deyil, rahatlıq və həyat keyfiyyətini yüksəldən məhsulları da büdcələrində daha çox nəzərə almağa başlayıblar.

***Günel Fərzəliyeva***

# Beyninizə idman etdirin: yeni dil öyrənin

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" istiqaməti çərçivəsində hazırlanıb*



Barselonada keçirilən Avropa Neyroelm Cəmiyyətləri Federasiyasının konfransında təqdim olunan bir araşdırmanın nəticələrinə görə, birdən çox dildə danışan insanların beyinləri daha gənc görünür. Bu o deməkdir ki, nə qədər çox dildə danışsanız və nə qədər tez danışsanız, bir o qədər yaxşıdır. Bununla da alimlər başqa bir dil öyrənməyin beynin qocalmasını yavaşladan ən unikal idman olduğunu bildirirlər. Tədqiqat göstərir ki, iki dildə danışanların beyinləri bir dildə danışanlardan təxminən altı yaş daha gənc görünür. Belə ki, iki dildə danışanların beyinləri yalnız bir dildə danışanlardan təxminən altı yaş daha gənc görünür. Üç dildə danışanların beyinləri təxminən yeddi yaş, dörd dildə danışanların beyinləri isə təxminən 13 yaş daha gənc görünür.

Beynimiz bir-biri ilə ünsiyyət quran milyardlarla sinir hüceyrəsindən ibarətdir. Lakin yaşlandıqca beynimizdəki əlaqə tez-tez pisləşir və yaddaş və düşüncə sürətinin azalmasına səbəb olur. Əvvəlki tədqiqatlar daha yüksək dil biliyinə malik Avropa ölkələrindən olan insanların daha yavaş yaşlanmağa meylli olduğunu müşahidə etsə də, bu tədqiqat danışıq dillərinin fərdi beyinlərə təsirini ölçdü. İspaniya, Çili, Argentina və Dublin alimləri Bask bölgəsində yaşayan - yüksək səviyyədə çoxdillilik ilə xarakterizə olunan - ispan, fransız və ya ingilis dillərində danışan insanları müqayisə etdilər.

Nevroloji yaşı ölçmək üçün alimlər müxtəlif yaş və dil qabiliyyəti səviyyələrinə malik 728 insanın beyin fəaliyyətini ölçmək üçün maqnitoensefaloqrafiyadan istifadə ediblər. Daha sonra istənilən yaşda normal beyin əlaqəsi səviyyəsini hesablamaq üçün nəticələri emal etmək üçün süni intellektdən istifadə etdilər. Daha sonra bir, iki, üç və ya dörd dildə danışan bərabər sayda insandan ibarət olan ikinci bir əlaqəsiz qrup skanerləndi və müqayisə edildi.

San Sebastiandakı Bask İdrak, Beyin və Dil Mərkəzindən olan Professor Lucia Amoruso deyir: "Sadə dildə desək, daha çox dildə danışan insanların beyinləri xronoloji yaşlarına görə gözləniləndən daha gənc görünürdü. Təsir yalnız danışılan dillərin sayı ilə əlaqəli deyildi. Daha yüksək dil biliyi və ikinci dilin daha erkən mənimsənilməsi də beynin daha gec qocalması ilə əlaqələndirilirdi. Bu, çoxdilli təcrübənin bir qradient (çoxdəyişənli bir funksiyanın ən sürətli artma istiqamətini və bu artımın sürətini göstərən riyazi anlayış) kimi vacib olduğunu göstərir: bu, sadəcə ikidilli olub-olmamaqla deyil, dil təcrübəsinin dərinliyi və müddəti ilə bağlıdır."

Tədqiqatçılar insanların yaşı, cinsi və təhsili kimi amilləri nəzərə alıblar, lakin həyat tərzi və sosial aktivlik kimi beyinə təsir göstərə biləcək digər amillərin potensial təsirini istisna edə bilməyəcəkləri barədə də iştirakçıları və ictimaiyyəti xəbərdar ediblər.

Yeni araşdırmaya cavab olaraq Afina Milli və Kapodistrian Universitetinin nevroloqu professor Kristina Dalla isə deyir: "Bu tədqiqat göstərir ki, ikinci, üçüncü və ya dördüncü dili öyrənmək beynimizin daha uzun müddət cavan qalmasına kömək edə bilər və nə qədər tez başlasaq, bir o qədər yaxşıdır. İstənilən yaşda - sosial, mədəni və beynimizin sağlamlığı üçün - başqa bir dil öyrənməyin bir çox yaxşı səbəbi var, buna görə də çətin olsa belə, istənilən yaşda bir insanın məktəbdə və yaxud da sonrakı həyat boyu dil öyrənməsini dəstəkləməliyik."

Lakin Loughborough Universitetinin bioloji psixologiya professoru Eef Hogervorst fərqli danışır və o insanları ehtiyatlı olmağa çağırır. Dəlillər çoxdilli olmağın daha yaxşı beyin dayanıqlığı ilə əlaqəli olduğunu göstərsə də, o deyir ki, birdən çox dildə danışan insanların bu bacarığını daha sağlam həyat tərzi sürmələri və ya daha yaxşı bir ixtisas oxumaq, o cümlədən fərqli musiqi alətlərində çalmaq kimi digər bacarıqlar əldə etməsinə yönəltməsi daha yaxşı ola bilər.

***Lalə Mehralı***

# Venesuela zəlzələsi elm mərkəzlərini hərəkətə keçirir - TƏHLÜKƏ



Dünya yaranandan bu günümüzə qədər insanların ən çox zərər gördüyü, adı gələndə vahimələndiyi təbii fəlakətlər sırasında ən dəhşətlisi zəlzələlər hesab olunur. Elm mərkəzləri, dünyanın tanınmış alimləri zəlzələlərin hansı halda necə və nə zaman baş verə biləcəyini öyrənə bilməyib. Baxmayaraq ki, bunun üçün dünya ölkələri milyardlarla maliyyə vəsaitləri xərcləsələr də, nəticə əldə olunmayıb. Bu da gözlənilməz halda insanların yaxalanmasına, şəhər və qəsəbələrin, kəndlərin dəhşətli fəlakətə bürünməsinə gətirib çıxarır. Sadəcə, elm mərkəzləri az qala fərziyyələr, ehtimallar əsasında zəlzələlərlə bağlı rəylər açıqlayır, mövqelər bildirirlər. İddialara görə, zəlzələnin intensivliyi 12 bala bölünmüş seysmik cədvəllə - Rixter şkalası ilə ölçülür. Bu cədvələ görə, 1 bal-hiss olunmayan, 2 bal-çox zəif, 3 bal-zəif, 4 bal-orta, 5 bal-nisbətən güclü, 7 bal çox güclü, 8 bal-dağıdıcı, 9 bal-viranedici, 10 bal-məhvedici, 11 bal fəlakətli, 12 bal-ən fəlakətli zəlzələ sayılır. Zəlzələlər yaranma şəraitinə görə 3 tipə ayırır: Denudasiya, Vulkanik və Tektonik zəlzələlər. Fəalakətli zəlzələr daha çox 9 ballıq zəlzələlərlə başlayır. Bu zaman bütün binaların zədələnməsi, ümumi çaxnaşma, heyvanların qışqırığı və qaçışması müşahidə edilir. On ballıq zəlzələ baş verən zaman dəmir-beton karkas binaların divarlarında birbaşa çatlar, uçma, bəzən isə binanın tam dağılması, adi kərpic, iribloklu və panel binalar, həmçinin çiy kərpicdən kənd evlərinin tam dağılması müşahidə olunur. On bir ballıq zəlzələ zamanı ən yüksək keyfiyyətlə tikilmiş körpülər, bəndlər, binalar dağılır, dəmir yolları ciddi zədələnir, yeraltı boru kəmərləri və magistral şosse yolları yararsız hala düşür. 12 bala bölünmüş seysmik cədvəlin Rixter şkalasının 12-ci zirvəsində həyat demək olar ki, sönür. Yerüstü bütün tikililər sıradan çıxır, yer səthinin dəyişməsi, qruntlarda böyük yerdəyişmələrlə müşayiət olunan iri çatlar, dağ uçqunları müşahidə olunur, göllər, şəlalələr əmələ gəlir, çaylar istiqamətini dəyişir. Bu zaman sağ qalmaq, fəlakətdən qaçmaq, demək olar ki, mümkünsüz görünür. Allah bəşəriyyəti, sevilən və seçilən tərəqqipərvər xalqları, millətləri, o cümlədən Azərbaycan xalqını belə fəlakətli zəlzələlərdən hifz etsin.

## Zəlzələlər necə yaranır?

Zəlzələləri öyrənən elm mərkəzləri iddia edirlər ki, zəlzələlər yeraltı zərbələr və Yerin üst qatının titrəməsidir. Bu, həm tektonik proseslərlə, həm də partlayış, su bəndlərinin doldurulması, dağlarda yeraltı sürüşmələrlə müşayiət olunur. Vulkanların püskürməsi zamanı da kiçik yeraltı təkanlar baş verə bilər. Zəlzələ Yerdə baş verən dinamik proseslər nəticəsində yaranır. Planetin daxilindəki enerji tədricən toplanır və hər hansı yerdə süxurların müqavimət qabiliyyətindən artıq olduqda, onların parçalanması və ya çatlaması ilə müşayiət olunur. Bu, hər tərəfə yayılan və öz yolu qarşısındakı maddələri rəqsi hərəkətə gətirən elastik dalğalar yaradır. Süxurların ilk parçalanma yeri zəlzələnin mərkəzi sayılır. Mərkəzdə titrəyiş həmişə qısa müddətli olur və sonra ətrafa yayılır.

Yerin özəyi və qabığı arasındakı litosfer layları zəlzələlərin yaranmasında böyük rol oynayır. Bu zaman müxtəlif layların sürüşməsi və toqquşması zamanı yaranan gərginlik boşalması yeraltı təkanlara səbəb olur. Müxtəlif dövrlərdə müxtəlif ərazilərdə minlərlə insanın həyatının itirilməsinə, şəhərlərin, kəndlərin və qəsəbələrin dağıdılmasına səbəb olan zəlzələlər baş verib.

Zəlzələ ilə məşğul olan elmə seysmologiya deyilir. Zəlzələləri öyrənən mərkəzlərin araşdırmalarından sonra gəldikləri qənaətə görə, dünyada indiyədək ən dağıdıcı gücə malik zəlzələ 1960-cı il mayın 22-də Çilinin Valdiviya şəhərində qeydə alınıb. "Böyük Çili zəlzələsi" kimi tarixə düşən zəlzələ Rixter cədvəli ilə 9,5 bal olub. 28 mart 1964-cü ildə Alyaskada baş verən 9,2 bal gücündəki zəlzələ ikinci ən güclü zəlzələ kimi qeydə alınıb. 3 dəqiqə davam edən zəlzələ sunamiyə səbəb olub. Zəlzələ və onu izləyən nəhəng dalğalar 128 nəfərin ölümünə və təxminən 310 milyon dollar ziyana səbəb olub. 26 dekabr 2004-cü ildə Hind okeanının Sumatra adasının sahillərində baş verən bu zəlzələ 40 ölkədə təxminən 230000 insanın ölümü ilə 21-ci əsrə damğasını vurdu. Bu, dünya tarixində qeydə alınmış üçüncü ən böyük zəlzələ idi. 8,3 dəqiqə ilə 10 dəqiqə arasında davam edən zəlzələ indiyə qədər görülən ən uzun müddətə malik olub. 2011-ci il martın 11-də baş verən zəlzələ Yaponiyanın şimal-şərqindəki Honsyu sahillərində, 24 km dərinlikdə qeydə alınıb. Zəlzələdən sonra bölgədə hündürlüyü 37,9 metr olan sunami dalğaları baş verib. Sunami ölkəyə böyük ziyan vurub. Zəlzələ nəticəsində 15900 nəfər həyatını itirib, 2531 nəfər isə hələ də itkin düşmüş hesab olunur.

Zəlzələləri öyrənən ABŞ Geologiya xidməti qeyd edir ki, bu günə qədər ən çox insan tələfatına səbəb olan zəlzələ 1556-cı il yanvarın 23-də Çində qeydə alınıb. Şensi əyalətində baş verən 8 bal gücündəki zəlzələ 830 min insanın həyatına son qoyub. Azərbaycanda baş verən dağıdıcı zəlzələ dünya tarixinin ən dəhşətli zəlzələrdən hesab olunur. 1667-ci ildə Şamaxıda baş verən 6.9 bal gücündə zəlzələ zamanı 80 min insan həlak olmuşdur, şəhər demək olar ki, tamamilə dağılmışdır. Bu dəhşətli zəlzələ ABŞ Geologiya xidmətinin hazırladığı 28 böyük zəlzələ siyahısına daxil olub. Şamaxıda 1902-ci ildə baş verən və eyni gücə malik daha bir zəlzələ isə 2 min insanın ölümü ilə nəticələnib. 1139-cu ildə Gəncədə baş verən 6.3 bal gücündə olan zəlzələdə isə 230 min, bəzi məlumatlara görə isə 300 min insan həlak olub. Göy-gölün yaranması da bu zəlzələ ilə əlaqələndirilir.

## Venesuelada baş verən dəhşətli zəlzələ elm mərkəzlərini hərəkətə gətirib

Elmin, texnologiyanın sürətlə inkişaf etməsinə baxmayaraq yenə də elm zəlzələlərin nə zaman baş verəcəyini müəyyənləşdirməkdə acizdir. Bu günlər Venesuelada baş verən dəhşətli zəlzələ elmin fəlakətin qarşısını almaqda çarəsiz olduğunu nümayiş etdirdi. Məlum oldu ki, elə təbii fəlakətlər və xəstəliklər var ki, onların baş verə biləcəyini əvvəlcədən müəyyənləşdirmək və ya aradan qaldırmaq, müalicə etmək, sağaltmaq mümkünsüzdür. Yəqin ki, bunun üçün zamana ehtiyac var, həmin zaman isə hələ ki, yetişməyib. Ona görə hələ də zəlzələlər, vulkanlar, müxtəlif xəstəliklər milyonlarla insanın canını almaqda davam edir. Görünən isə ondan ibarətdir ki, Venesuelada baş verən dəhşətli zəlzələ dünya alimlərini hərəkətə gətirib. Artıq Böyük Britaniya, ABŞ, Fransa, Yaponiya, Almaniya və digər ölkələrin zəlzələləri öyrənən alimləri bir araya gəliblər. Vaşinqtonda mövzu üzrə təşkil olunan konfransda alimlər əməkdaşlığa dair razılaşma əldə ediblər. Dünən isə konfrans iştirakçıları Venesueləyə səfər edib və zəlzələlərin baş verdiyi ərazilərə baxış keçiriblər.

Məlum olduğu kimi, iyunun 25-nə keçən gecə Venesuelanın şimalında 7,1 maqnitudalı zəlzələ baş verib. ABŞ Geologiya Xidməti daha sonra 40 saniyə fərqlə 7,2 və 7,5 maqnitudalı daha iki yeraltı təkanın qeydə alındığını bildirib. Ölkə rəhbərliyi fövqəladə vəziyyət rejimi elan edib. Zəlzələ nəticəsində həlak olanların sayı 2 min 595 nəfərə çatıb. Bu barədə ölkənin müvəqqəti prezidenti vəzifəsini icra edən Delsi Rodriges bildirib. O itkin düşənlərin sayı ilə bağlı dəqiq məlumat verməyib. KİV-in yaydığı qeyri-rəsmi məlumatlara görə, itkin düşənlərin sayı təxminən 38 min 500 nəfərə çatır. Rodriges hökumətin iki zəlzələnin yaratdığı dağıntılara gec reaksiya verməsi ilə bağlı iddiaları da təkzib edib: "Bu, miqyasını təsəvvür belə edə bilmədiyimiz təbii faciə idi. Baxmayaraq ki, ölkəmizdə seysmik hadisənin baş verə biləcəyini bilirdik". O əlavə edib ki, axtarış-xilasetmə əməliyyatları davam edir: "Biz hələ də sağ qalan insanları tapa bilərik".

Məlumatlara görə, zərər çəkmiş 3 142 ailə evlərini itirib və hazırda xüsusi sığınacaqlara yerləşdirilib. Venesuelanın səhiyyə sisteminin onilliklər boyu baxımsız qalmasından sonra xəstəxanalar zərərçəkənlərin müalicəsinin öhdəsindən çətinliklə gəlir.Bəzi ölkələr, o cümlədən ABŞ zəlzələnin nəticələrinin aradan qaldırılması üçün faciə yerinə axtarış-xilasetmə qruplarını göndərib: "Bu gün 80 nəfərlik iki axtarış-xilasetmə qrupu Venesuelaya yola düşüb. Bu təcrübəli xilasedicilər Dövlət Departamentinin rəhbərliyi altında ABŞ hökumətinin zəlzələnin nəticələrinin aradan qaldırılması üzrə səylərinə qoşulacaqlar".

***İ.ƏLİYEV***

**"SƏS" qəzetinə abunə kampaniyası davam edir!**



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. PressaİnformMMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744
7. Bakmətbuat MMC 0502644010

1 nüsxə 1 aylığı 8 AZN
6 aylıq 48 AZN
1 illik 96 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# 12 ay sonra uşaqlar xilas olur




***Elə bu gün haqqında danışacağımız xilasa başlanmasını istərdik. Çünki bu, elə bir həssas məsələdir ki, həllini çoxdan gözləyirdik. Söhbətimiz uşaqların rəqəmsal platformalarda iştirakı və bunun onların fiziki və mənəvi inkişafına ciddi təsiri barədədir.***

Çoxsaylı valideyn narahat idi. Çünki işə gedir, uşaqlara nəzarət edə bilmirlər. Sosial platformalar uşaqların diqqətini cəlb edir, onlar gün ərzində saatlarla şəbəkələri gəzir və yaşlarına uyğun olmayan kontentlərlə qarşılaşmalı olurlar. Əksər valideyn narahat olsa da, lakin qarşısıalınmaz, çarəsiz bir hal kimi qəbul etmək məcburiyyətində qalır. Çoxsaylı valideyn də var ki, onlar yuxarıda haqqında danışdığım valideynlər qədər əsla narahat deyillər. Onlar dövrlə ayaqlaşmalı olduqlarını zənn edir, texnologiyalarsız həyatın mümkün olmadığını, uşaqlara sosial platformaların heç bir ziyan vurmadığını düşünərək bu səbəbdən də onlara nəzarəti arxa planda saxlayırlar.

Hələ çoxsaylı valideyn-xüsusilə analar var ki, 4-5 aylığından uşaqları smartfon telefona alışdırır. Onları yedirdərkən telefonu açıb qarşısına qoyur. Uşaq ağzını sadəcə cizgi filmlərindəki rənglərə, səslərə görə açır və nəticədə nə yediyini əsla anlamır. Belə analar anlamaq istəmirlər ki, uşaqlarına ən çox pisliyi elə özləri edir. Axı 4-5 aylıq uşaq hara, telefon hara. Əvvəllər uşaqlar yemək yeməyəndə onları parka aparır, gülə-çiçəyə, uşaqlara baxa-baxa yedirirdik. İndi isə uşaqları evlərə qapamışıq, qarşısına telefon, kompyuter qoymuşuq və əsla düşünmürük ki, çox səhv bir yoldayıq. Eləcə də yeniyetmə və gənclərə qarşı eyni münasibətdə olan saysız valideyn var. Hər kəs uşağına bir smartfon telefon alıb, adını da qoyub ki, indi texnologiya əsridir, telefon insana hava, su kimi lazımdır.

Mən iki övladıma 11-ci sinfi bitirənədək smartfon telefon almamışam. Onlara sadə bir telefon alıb vermişdim ki, əlaqə saxlaya bilim. Bu fikri dəfələrlə yazılarımda da yazmışam, televiziya verilişlərində də səsləndirmişəm, mediaya verdiyim açıqlamalarda da. Bunu mənim kimi edən valideynlər də az deyil. Lakin çox olanlar az olanları elə üstələyib ki, sadə telefon gəzdirən uşaqlara valideyninin smartfon alıb cibinə qoyduğu uşaqlar lağ edir, "bunun telefonuna bax",- deməklə onları yaşıdları arasında alçaldır, heysiyyəti ilə oynayırlar. Belə olduqda isə uşaqlar valideynlərinə şikayətlənir və smartfon telefon tələb edir.

Sadə telefon bir qayda olaraq məktəblərdə də tətbiq oluna bilərdi. Lakin edilmədi. Əvvəldən edilsəydi, bütün məktəblilər bunu rəsmi şəkildə qəbul edəcək və "belə olmalıdır" kimi mənimsəyəcəkdilər. Təəssüf ki, belə olmadı. Ona görə də smartfonlar məktəblərə də ayaq açdı, dərsi pozdu, müəllim, "yığışdırın telefonları!",- deyəndə isə şagirdlər konfliktə başladı.

Rəqəmsal platformalar çox tez-tez yenilənir, sürətlə inkişaff edir. Yeni şəbəkələr meydana çıxır. Bu platformalar hər kəsə açıqdır. Hər kəs nə istəyirsə, paylaşır, bir saniyə ərzində minlərlə insanı özü, təhsili, həyatı, ailəsi, işi, ağılı-kamalı və ya ağıldan kənar olması barədə məlumatlandırır. Filtr olmadığı üçün bu video və fotolar insanların qarşısına olduğu kimi çıxır və təəssüf ki, səhərdən axşamadək əlində telefon olan övladlarımız da onları görür. Məsələ tək bununla bitmir: reklamlar, oyun təklifləri, asan pul qazanmağa çağırış, yalançı qəhrəmanlığın əsl qəhrəmanlıq kimi təqdim olunması, əxlaqı yerində olmayan insanların canlı yayınlarda söhbəti, cinsi azlıqlardan olan nümayəndələrin insanlara dərs keçməsi, müharibələr, uşaq ölümləri, qan-qada və uşaqlarımızın görməli olmadığı daha nələri onlar asanlıqla görür, eşidir.

Çox vaxt azyaşlı uşaqlara öz telefonumuzu veririk. Lakin düşünmürük ki, baxdığımız kontentlərə uyğun onlarla məzmun onların qarşısına çıxacaq. Biz düşünürük ki, uşağımız telefonda cizgi filminə baxır, hər hansı bir oyun oynayır. Lakin bircə dəfə dəşünmürük ki, bizim qarşımıza qəflətən çıxan ədəbsiz reklamlar onun da qarşısına çıxacaq. Bizim baxdığımız kontentlər uşaq əlini pəqəmsal platforma üzərinə toxunduran kimi bir-birinin ardınca sıralanacaq.

Uşaqları qorumaq istəyən, bunun üçün cəhdlər edən, evdə nəzarəti gücləndirən valideynlər az deyil. Lakin unutmayaq ki, uşaqlarımız dövrün uşaqlarıdır və necə olursa olsun, telefou ələ keçirəcək, görməli olmadıqlarını görəcəklər. Və nəticədə ya psixologiyası pozulacaq, ya sağlamlığına zərər dəyəcək, ya nələrinsə qurbanına çevriləcək. Qəddarlaşacaq, əlinə soyuq silah almağa cəhd edəcək, valideynə, müəllimə cavab qaytaracaq, dostu, rəfiqəsi ilə kobud davranacaq.

Bütün bunlara görə narahat valideynlər var. Narahat olmayanlar üçün də biz narahatlıq keçiririk. Çünki uşaqların gələcəyimiz olduğunu, bu dövlətin, Vətənin gələcəyinin onların çiyni üzərində duracağını düşünəndə, bir uşağın belə qurban olmasına ürəyimiz tab gətirmir. Odur ki, hər zaman səsimizi qaldırdıq. Valideynlərə üz tutduq, uşaqları sosial şəbəkələrdən uzaq saxlamağı tövsiyə etdik. Aid qurumlara çağırış etdik, həyacan təbili çaldıq, uşaqların xilasını istədik.

Çox qürur hissi ilə qeyd edək ki, son bir il ərzində Milli Məclisdə həm istifadəçilərin pəqəmsal platformalarda qeyri-etik hərəkətlərə, söhbətlərə görə cinayət məsuliyyətinin yaranması, həm də uşaqların bu platformalarda təhlükəsizliyinin təmin olunması məqsədilə qanun layihələri hazırlanıb müzakirəyə çıxarıldı və qəbul edildi.

Uşaqların yetkinlik yaşına çatana qədər zərərli təsirlərdən uzaq olmasının onların fiziki və psixoloji sağlamlığına, düzgün inkişafına və davranışına, sağlam baxışla yetişməsinə imkan verəcəyi nəzərə alınaraq 16 yaşadək pəqəmsal platformalardan istifadə-yəni hesab yaratma məhdudiyyəti, 16-18 yaşlı gənclərin isə valideyn nəzarəti ilə sosial şəbəkələrdən istifadə etməsi ilə bağlı qanun layihəsinin Milli Məclisdə müzakirəsi və ötən həftə üçüncü oxunuşda qəbulu böyük ictimai rezonans doğurdu. Və hər kəs bunu razılıq hissi ilə, hətta lap çoxdan gözlədikləri məsələnin həlli kimi yüksək dəyərləndirdi.

Hər zaman demişəm, yenə də təkrar etmək istəyirəm: bizim dövlətimiz bizim övladlarımızı bizdən çox düşünür, qoruyur. Yuxarıda dediyim kimi, baxışı, dünyagörüşü fərqli valideynlər var: övladını qorumaq istəyənlər və bu barədə fikirləşməyənlər. Birincilər qoruya bilmirdi, ikincilər isə qorumaq barədə düşünmürdü. Nəticədə qorumaq istəyən valideyn də qoruya bilmirdi. Belə olan təqdirdə yeni qanunu uşaqların xilası hesab edirik. Bu, tək bizim ölkədə deyil, dünyanın bir çox ölkələrində də belədir. Çünki uşaqların təhlükə altında olduğunu hər bir cəmiyyət görür. Buna görə də onları qorumaq üçün tədbirlər həyata keçirir. Bu barədə hələ 2025-ci ilin dekabrından Avstraliyada müvafiq qanun qəbul edilib. Fransa 2026-cı ilin yanvar-mart aylarında uşaqların sosial şəbəkələrdə olmasına yaş məhdudiyyəti tətbiq edən dünyada ikinci, Avropada birinci dövlət olub.

Hazırda müxtəlif ölkələrdə müxtəlif yaşdan belə tənzimləmələrin tətbiqi imkanlarına baxılır. Danimarka (18 yaş), İspaniya (16), Fransada (15), ABŞ-da federal səviyyədə (17), ştatlarda isə Kaliforniya, Texas, Nyu-York, Tennessi və Yutada (18), Kolorado, Corciya, Luizianada (16), Floridada (14) yaşmaları, İrlandiyada Online Safety Code və Böyük Britaniyada Online Safety Act kimi addımlar mövcuddur.

Qanun 12 ay sonra qüvvədə olacaq. Nə üçün 12 ay sonra? Çünki bu, böyük bir prosesdir. Heç vaxt cəmiyyətimizdə olmayan, həyatımız rəqəmsallaşdıqdan sonra ilk dəfə tətbiq edəcəyimiz sistem formalaşdırılmalıdır. Uşaqların yaşını, kimliyini təsdiq edən və onlar qeydiyyatdan keçmək istədikləri halda bunu aşkar edən bir sistem. Odur ki, bu məsələlərin həlli üçün 12 ay vaxt verilir. Dövlətimiz yenə də övladlarımızı bizdən daha çox düşündü və bununla bağlı qərar verdi. Bu qərar hər bir vətəndaşın, ümumilikdə cəmiyyətin, Vətənin gələcəyi naminədir. Beləliklə, 12 ay biz uşaqlara daha çox vaxt ayıraq, onlara nəzarət edək, qoruyaq. 12 ay sonra isə uşaqlarımız bu qanunla dövlət tərəfindən hərtərəfli qorunacaq.

***Mətanət Məmmədova***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**sesmediaqrup@gmail.com**
**sesqazeti@gmail.com**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet həftədə iki dəfə nəşr olunur
**Tiraj: 2000**